**"Səs"**.- 2010.- 26 fevral.- N 36.- S.8-9., 27 fevral.-N.37.-S.8-9., 2 mart.-N.38.-S.8-9.

## Xocalıda erməni vandalizmi həyata keçirilib

"Səs" qəzeti Prezident Kitabxanası Xocalı soyqırımının ildönümünə həsr olunmuş dəyirmi masa və SİA-nın hazırladığı diskin təqdimatını keçirdi

Dünən Prezident Kitabxanasında "Səs" qəzetinin təşkilatçılığı ilə Xocalı soyqırımı ilə bağlı dəyirmi masa və SİA-nın hazırladığı diskin təqdimatı keçirilib. Dəyirmi masada Prezident Kitabxanasının direktoru Mayıl Əhmədov, millət vəkilləri Fəzail Ağamalı, Jalə Əliyeva, Miri Qəmbərov, Aydın Həsənov, Mirkazım Kazımov, Yeni Azərbaycan Partiyasının (YAP) Siyasi Şurasının üzvü Aydın Hüseynov, Milli Qeyri-Hökumət Təşkilatları Forumunun Prezidenti Rauf Zeyni, Türkiyə Universitetləri Məzunları İctimai Birliyinin sədri Çingiz Bayramov, Azad Respublikaçılar Partiyasının sədri Kamil Seyidov, YAP Gənclər Birliyinin (GB) sədr müavini Bəxtiyar Əsgərov, YAP Nərimanov rayon təşkilatı GB-nin sədri Yusif Babanlı, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu, "Kaspi" qəzetinin baş redaktoru Natiq Məmmədli, "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı, "İki sahil" qəzetinin baş redaktor müavini İsmayıl Hacıyev iştirak edirdilər.

Dəyirmi masada çıxış edən Mayıl Əhmədov ermənilərin zaman-zaman Azərbaycan xalqına qarşı törətdiyi genosid siyasətindən, o cümlədən, bəşəriyyətə və insanlığı qarşı olan Xocalı soyqırımının dəhşətlərindən bəhs etdi. Bildirdi ki, Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı qədər dəhşətlidir. Natiq erməni vandalizminin əsil mahiyyəti barədə dünya birliyinə yetərincə məlumatların çatdırılmasının vacibliyini söylədi. Qeyd etdi ki, istintaq materiallarına, eləcə də, faciənin şahidlərinin və Ermənistandan əsirlikdən qayıdan mülkü və hərbi şəxslərin fikirlərinə, həmçinin, dünya KİV-lərində yer alan materiallara istinadən demək olar ki, Xocalı qətliamını kimlər həyata keçirib. O şəxslər Ermənistanın hakimiyyətində ən yüksək vəzifələrdə təmsil olunanlardır. Hesab edirəm ki, onlar beynəlxalq məhkəməyə verilərək, törətdikləri cinayətin cəzasını almalıdırlar.

### XOCALIDA ERMƏNİ VANDALİZMİ HƏYATA KEÇİRİLİB

Xocalı soyqırımına həsr olunan sənədli xronikanın mahiyyətinə toxunan "Səs" qəzetinin baş redaktoru və SİA-nın baş direktoru Bəhruz Quliyev diskin hazırlanmasında məqsədin Xocalı həqiqətlərinə bir daha nəzər salmaq, onu ictimai fikrin yaddaşında möhkəmləndirmək olduğunu bildirdi. O, qeyd etdi ki, 1987-ci il fevralın 13-də Xankəndində ermənilərin ilk separatçı mitinqləri başlaması ilə Azərbaycanın dilbər guşələrinin tədricən işğal edilməsinin əsası qoyulub. 1987-ci ildən 1992-ci ilə qədər erməni-rus hərbi birləşmələri tərəfindən Azərbaycanın onlarla yaşayış məskəni işğal edilib, insanlar soyqırıma məruz qalıblar: "1992-ci il fevralın 25-dən 26-sına keçən gecə isə ermənilər Xocalıda dünyanı dəhşətə gətirən soyqırımı aktı həyata keçirdi. Ermənilər Xankəndində yerləşən SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını yerlə yeksan etdi. Ermənilər 613 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Onların 63-ü uşaq, 106-sı qadın, 70-i isə ahıl adam idi. 8 ailə bütövlükdə qətlə yetirildi. 487 nəfər yaralandı. Yaralananların 76 nəfəri uşaq idi. Girov götürülənlərin sayı 1275 nəfər təşkil edir. 150 nəfərin aqibətindən isə hələ də xəbər-ətər yoxdur.

### MEHRİBAN XANIM ƏLİYEVANIN XÜSUSİ SƏYİ NƏTİCƏSİNDƏ "XOCALI HƏQİQƏTLƏRİ" KİTABI DÜNYA İCTİMAİYYƏTİNƏ ÇATDIRILDI

**Aydın Həsənov:**

- Bu gün bizim anma mərasimini keçirdiyimiz Xocalı faciəsi möhtərəm prezidentimizin bu yöndə yeritdiyi ardıcıl siyasətin, bu siyasətin nəticəsi olan silsilə tədbirlərin tərkib hissəsidir. Bəli, artıq bütün dünya bilir ki, Azərbaycan xalqının XX əsrdə üzləşdiyi dəhşətli faciələrdən biri də Xocalı soyqırımıdır. Xocalı faciəsi Xatın, Lidisa, Oradur soyqırımı kimi insanlıq tarixinə düşmüş qanlı olaydır. Xocalı soyqırımı aqressiv, cinayətkar və terrorçuluğu dövlət səviyyəsinə qaldırmış Ermənistanın rəsmi siyasətinin nəticəsidir. XX əsrin sonunda baş vermiş bu soyqırım təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdən biridir. Azərbaycan tarixinin ən dəhşətli və qanlı səhifələrindən olan Xocalı soyqırımı, eyni zamanda, bəşər tarixinin ən genişmiqyaslı və xüsusi amansızlıqla törədilmiş hərbi cinayətlərindəndir. 18 il əvvəl 1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri Xankəndində yerləşdirilən SSRİ silahlı qüvvələrinə məxsus 366-cı alayın köməyi ilə Xocalı şəhərinin dinc mülki əhalisinə divan tutaraq şəhəri yerlə-yeksan ediblər. Xocalı soyqırımı zamanı 613 nəfər dinc azərbaycanlı vəhşicəsinə qətlə yetirilib, 1275 nəfər sakin əsir götürülüb. Təəssüf hissi ilə qeyd etməliyəm ki, onlardan 700 nəfəri hələ də erməni əsirliyindədir. Dinc əhaliyə qarşı bu cür qeyri-insani əməllər özlərini dünya ictimaiyyətinə "mədəni" və

"məzlum" xalq kimi tanıtmağa çalışan ermənilərin və erməni millətçiliyinin əsil mahiyyətini dünyaya nümayiş etdirib. Bu gün dünya dövlətləri ərazi bütövlüyü prinsipini rəhbər tutaraq beynəlxalq terrorizmə və təcavüzkarlığa qarşı vahid cəbhədə birləşməlidir. Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və bütövlükdə, 20 faiz ərazisinin işğal edilməsi, 20 mindən artıq Azərbaycan vətəndaşının dəhşətli terrora və kütləvi qırğınlara məruz qalması ermənilərin sırf etnik təmizləmə siyasəti aparmalarından xəbər verir. Beynəlxalq təşkilatlar və dünya birliyi terrorçuluğu və irqçi ideologiyanı dövlət siyasəti səviyyəsinə qaldırmış təcavüzkar Ermənistana qarşı sərt tədbirlər görməsə, bəşəriyyət yeni faciələrlə üz-üzə qala bilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyev ikinci dəfə hakimiyyətə gələndən sonra Xocalı soyqırımına siyasi və hüquqi qiymət verilib. Ulu öndər 1995-ci il fevralın 25-də Təzəpir məscidindəki çıxışında deyib: "Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək kimi vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü indiyədək bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Qeyd etdiyim kimi, gecə vaxtı dinc əhaliyə hücum etmək, uşağı, qadını, qocanı, xəstəni vəhşicəsinə yerindəcə məhv etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir. Xocalı soyqırımı ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi, insana qarşı ən rəzil üsullardan istifadə etməsi bəşəriyyət tarixinə daxil olub və olacaq. O gecə həlak olanlar, dünyadan gedənlər Azərbaycanın əziz vətəndaşlarıdır, onlar respublikamızın ərazi bütövlüyü yolunda qurban olublar, xalqımızın milli azadlıq yolunda apardığı mübarizənin qurbanlarıdır, şəhidləridir. Onların faciəli surətdə həlak olmaları, şəhid olmaları Azərbaycan xalqının qəhrəmanlığının, mətanətinin, cəsarətinin nümayişidir. Bir də qeyd edirəm ki, Xocalı şəhidləri də Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, müstəqilliyi yolunda şəhid olmuş vətəndaşlarımızdır". Ümummilli lider Heydər Əliyev 1994-cü il martın 1-də Xocalı soyqırımı ilə əlaqədar xüsusi Fərman imzalayıb. Azərbaycan Respublikasının Milli Məclisinin Qərarı ilə 26 fevral "Xocalı soyqırımı və milli matəm günü" elan olunub, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilib. 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti tərəfindən Fərman imzalanıb və həmin Fərmana əsasən, hər il fevralın 26-da saat 17-də soyqırım qurbanları bir dəqiqəlik sükutla yad edilirlər. Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevin tapşırığı ilə son illər bu soyqırım hadisəsinin bütün dünyada tanınması istiqamətində geniş ideoloji-intellektual işlər görülür. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xüsusi səyi nəticəsində Azərbaycan həqiqətləri, Xocalı soyqırımı haqqında kitablar, filmlər, stendlər dünyanın hər yerində nümayiş etdirilir.

## XOCALI FACİƏSİNİ BÜTÜN İLBOYU YAD ETMƏLİ VƏ UNUTMAMALIYIQ

**Jalə Əliyeva:**

- Artıq bir neçə gündür ki, Xocalı faciəsinin 18-ci ildönümü ilə əlaqədar çoxsaylı tədbirlərdə iştirak edirik. 18 il bundan əvvəl baş verən Xocalı soyqırımına bu gün istər Azərbaycanda, istərsə də beynəlxalq aləmdə böyük diqqət göstərilir. Bu məqamda ulu öndər Heydər Əliyevin bir fikrini yadınıza salmaq istəyirəm. O demişdir: "Bundan sonra 100 il keçsə də, gələcək nəsillər bu faciəni unutmamalıdırlar". Bu gün bizim həyata keçirdiyimiz aksiyalar, toplantılar onu göstərir ki, həqiqətən, Azərbaycan xalqı bu faciəni unutmur və unuda bilməz. Əgər Xocalını unutsaq, özümüz unudularıq. Daha əvvəl pərakəndə halda aparılan təbliğat işləri, artıq mütəşəkkilləşməyə başlayıb. Belə ki, hər il Azərbaycanın xaricdəki səfirlikləri, diaspor təşkilatları faciənin dünya ictimaiyyətinə dolğun çatdırılması üçün mühüm tədbirlər keçirir. Təbii ki, bu faciəni ildə bir dəfə anmaq bəs etmir. Xocalı faciəsini bütün ilboyu yad etməli və unutmamalıyıq. Eyni zamanda, faciə haqqında danışmaqdansa, onun dünya ictimaiyyətinə olduğu kimi çatdırılması üçün real addımlar atılmalıdır. İlk dəfə bu missiyanı öz üzərinə Heydər Əliyev Fondunun Prezidenti, millət vəkili Mehriban xanım Əliyeva götürdü. Onun rəhbərliyi ilə hazırlanan "Xocalı həqiqətləri" kitabı bütün dünyaya ayaq açdı. Artıq 3-4 ildir ki, bu məsələ ilə bağlı dünya ictimaiyyətinin müsbət reaksiyası ilə qarşılaşırıq. Xocalı faciəsinin bütün dünyaya çatdırılması istiqamətində Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin rəhbəri Leyla xanım Əliyevanın əməyini yüksək qiymətləndirməliyik. O, əsil vətəndaşlıq hissini dərk edərək, geniş miqyası əhatə edən "Xocalıya Ədalət" kampaniyasını həyata keçirməyə başlayıb. Bu kampaniyanın işi yalnız təbliğatla yekunlaşmır. Bu yaxınlarda Uqandada İslam Konfransı Təşkilatının (İKT) toplantısı keçirildi. Həmin toplantıda, ilk dəfə olaraq, Xocalı hadisələrinin soyqırım kimi tanınmasını özündə əks etdirən qətnamə qəbul olundu. Dünyanın dörddə bir hissəsini əhatə edən İKT kimi beynəlxalq təşkilatın bu cür qətnamə qəbul etməsi olduqca əhəmiyyətlidir. İKT bu sənədi qəbul etməklə böyük bir missiyanı öz üzərinə götürdü.

## XOCALIDA ERMƏNİ VANDALİZMİ HƏYATA KEÇİRİLİB

Xocalı soyqırımına həsr olunan sənədli xronikanın mahiyyətinə toxunan "Səs" qəzetinin baş redaktoru və SİA-nın baş direktoru Bəhruz Quliyev diskin hazırlanmasında məqsədin Xocalı həqiqətlərinə bir daha nəzər salmaq, onu ictimai fikrin yaddaşında möhkəmləndirmək olduğunu bildirdi. O, qeyd etdi ki, 1987-ci il fevralın 13-də Xankəndində ermənilərin ilk separatçı mitinqlərə başlamaları ilə Azərbaycanın dilbər guşələrinin tədricən işğal edilməsinin əsası qoyulub. 1987-ci ildən 1992-ci ilə qədər erməni-rus hərbi birləşmələri tərəfindən Azərbaycanın onlarla yaşayış məskəni işğal edilib, insanlar soyqırıma məruz qalıblar: "1992-ci il fevralın 25-dən 26-sına keçən gecə isə ermənilər Xocalıda dünyanı dəhşətə gətirən soyqırımı aktı həyata keçirdi. Ermənilər Xankəndində yerləşən SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını yerlə yeksan etdi. Ermənilər 613 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Onların 63-ü uşaq, 106-sı qadın, 70-i isə ahıl adam idi. 8 ailə bütövlükdə qətlə yetirildi. 487 nəfər yaralandı. Yaralananların 76 nəfəri uşaq idi. Girov götürülənlərin sayı 1275 nəfər təşkil edir. 150 nəfərin aqibətindən isə hələ də xəbər-ətər yoxdur.

## PREZİDENT İLHAM ƏLİYEV TƏRƏFİNDƏN QƏLƏBƏ XƏBƏRİNİ EŞİTDİYİMİZ GÜN BÜTÜN DƏRDLƏRİMİZİ UNUTDUĞUMUZ GÜN OLACAQ

**Jalə Əliyeva:**

- İKT Xocalını soyqırımı kimi tanıması ilə digər beynəlxalq təşkilatlara da bir çağırış etmiş olub. İKT Gənclər Forumunun Sivilizasiyalararası Alyans üzrə baş koordinatoru Leyla xanım Əliyevanın bu işdə böyük rolu olub. Onun gördüyü işlər vətəndaşlıq nümunəsidir. Bu gün Azərbaycanda müharibəni vəsf edən və onun ağrı-acılarını üzə çıxaran əsər yoxdur. Təbii ki, tarixi xronologiya və faktlarla yanaşı, ideoloji mübarizə də mühüm əhəmiyyət kəsb edir. Prezident Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyev bu yaxınlarda bu məsələlərlə bağlı geniş məqalə yazıb. Həmin məqalə KİV-lərdə təqdim olundu, onun ictimai müzakirəsi təşkil edildi. Bu baxımdan düşünürəm ki, ideoloji mübarizəni nəzərdə tutan ədəbiyyat pərakəndə vəziyyətdədir. Çalışmalıyıq ki, bundan sonra dünya ictimaiyyətinin nəzərini Xocalı soyqırımına yönəldə biləcək əsərlər yaradaq. Hətta bununla bağlı dövlət nəzarətində olan koordinasiya şurasının yaradılmasını təklif edirəm. Bugünədək böyük əziyyətlə topladığımız materiallara ədəbi əsərlər əlavə edilərsə, bu ümumi işimizin xeyrinə olar. Bu yaxınlarda televiziya kanallarının birində eşitdim ki, axı biz nə üçün ancaq qanlı cəsədlər göstərməliyik? Bəs onda nə üçün erməni 200 ildən bəridir ki, qondarma soyqırımını tanıtması yönündə təbliğat işi aparır? Nə üçün onlar misli görünməmiş vəhşiliklər törədərək cəfəng iddialarını dünya birliklərinə diqtə edir? Dənizdən-dənizə " böyük Ermənistan" xülyası ilə yaşayır və Avropa onun göstərdiklərindən dəhşətə gəlmir. Ancaq söhbət azərbaycanlılardan gedərkən vəziyyət başqa cür istiqamət alır.

Prezident cənab İlham Əliyev tərəfindən qələbə xəbərini eşitdiyimiz gün bütün dərdlərimizi unutduğumuz gün olacaq. Çoxdandır qoxusunu, ətrini unutduğumuz torpaqlarımızda əkilən buğdaları görəndə, bişirilən çörəklərin ətrini duyanda, həqiqətən anlayacağıq ki, bu mübarizənin bir anlamı var imiş.

## YAP XOCALI FACİƏSİNİ BEYNƏLXALQ ALƏMDƏ TANITDIRMAQ İSTİQAMƏTİNDƏ FƏALİYYƏT GÖSTƏRİR

**Aydın Hüseynov:**

- Beynəlxalq aləm Xocalı soyqırımı haqqında geniş məlumatlandırılır. 2008-ci il mayın 8-dən İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKTF) Mədəniyyətlərarası Dialoq üzrə baş əlaqələndiricisi Leyla xanım Əliyevanın təşəbbüsü ilə təsis edilən, fəaliyyətinə 2009-cu ilin fevralında start verilən və hazırda 50-dən artıq ölkədə yüzlərlə könüllünün iştirakı ilə uğurla davam etdirilən "Xocalıya Ədalət" beynəlxalq informasiya və təşviqat kampaniyası bu işə öz töhfəsini verməkdədir. Bu kampaniyanın məqsədi beynəlxalq ictimaiyyəti Xocalı soyqırımı ilə bağlı məlumatlandırmaq, qətliama beynəlxalq aləmdə mənəvi-siyasi qiymət verilməsinə və bu soyqırımın qurbanlarının xatirəsinin anılmasına nail olmaqdır. Xatırladaq ki, ötən il yanvarın 31-də İslam Konfransı Təşkilatına üzv dövlətlərin Parlament İttifaqının (İKT Pİ) Uqandanın paytaxtı Kampala şəhərində keçirilən və 51 ölkənin parlament heyətləri başçılarının iştirak etdiyi VI sessiyasında forumun təşəbbüsü ilə qətnamə qəbul edilib. Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində irəli sürülən qətnamədə Xocalı faciəsinə "Erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "İnsanlığa qarşı cinayət" kimi qiymət verilib. Qətnamədə "Xocalıya ədalət" beynəlxalq kampaniyasına həm milli, həm də beynəlxalq səviyyədə tam dəstək verməyə çağıran bənd də öz əksini tapıb. Qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı soyqırımını "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir. Nəzərə alsaq ki, həmin Parlament İttifaqı öz sıralarında dünya parlamentlərinin, demək olar ki, dörddə birini cəmləşdirir və dünyanın ən böyük parlamentlərarası beynəlxalq qurumlarındandır, həmin qətnamədə Xocalı qətliamının beynəlxalq hüququn normalarına əsasən, insanlığa qarşı cinayət adlandırılması Xocalı soyqırımının dünya səviyyəsində tanınmasına, eyni zamanda, bu cinayəti törədənləri məsuliyyətə cəlb etmək üçün keyfiyyətcə yeni bir mərhələ açacaq. Bundan əlavə, ötən ilin dekabrında BMT çərçivəsində

keçirilən konfransda Xocalı soyqırımı Ruanda, Srebrenitsa, Xolokost kimi dünya tərəfindən tanınmış soyqırımları ilə yanaşı, İnsan Haqları Günündə yada salınıb və bununla əlaqədar BMT-də konfrans keçirilib.

Xalqımız 1948-ci il 9 dekabr tarixli "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" konvensiyasını rəhbər tutaraq, Ermənistan Respublikasına qarşı BMT-nin Beynəlxalq Məhkəməsində iddia qaldırmaq üçün bütün hüquqi əsaslara malikdir. Dünya bilməlidir ki, bu cinayət təkcə Azərbaycan xalqına qarşı deyil, həm də bütün bəşəriyyətə qarşı yönəldilib. Bu gün Ermənistanda mühüm dövlət postları tutanların bir çoxu baş vermiş soyqırımın günahkarları kimi beynəlxalq məhkəmə qarşısında cavab verməlidir. Cinayət cəzasız qalmamalıdır. Ermənistanın hərbi-siyasi təcavüzü dünya ictimaiyyəti tərəfindən ittiham edilməlidir. Beynəlxalq təşkilatlar, dünya dövlətlərinin parlamentləri Ermənistanın Azərbaycan torpaqlarında törətdiyi hərbi cinayətə - Xocalı soyqırımına əsil soyqırımı hadisəsi kimi beynəlxalq siyasi-hüquqi qiymət verməlidirlər. 1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan hökuməti və parlamenti ermənilərin azərbaycanlılara qarşı törətdiyi cinayətlər, o cümlədən, Xocalı soyqırımı haqqında həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırmaq istiqamətində ardıcıl fəaliyyət göstərib. Məhz ulu öndərimizin təşəbbüsü ilə 1994-cü ildə Azərbaycan Milli Məclisi Xocalı faciəsini soyqırımı kimi qiymətləndirib və beynəlxalq ictimaiyyətə, dünya dövlətlərinə müraciət qəbul edib. Xocalı faciəsini beynəlxalq aləmdə tanıtdırmaq istiqamətində Yeni Azərbaycan Partiyası ötən dövr ərzində genişmiqyaslı fəaliyyət göstərib. Belə ki, YAP ötən illərdə ATƏT, AŞ, BMT kimi beynəlxalq qurumlara ünvanladığı müraciət, məktub və sənədlərdə dünya ölkələrini soyqırıma münasibət bildirməyə çağırıb. Xaricdə Azərbaycan diaspor təşkilatları da soyqırımının tanınması istiqamətində ardıcıl işlər görürlər.

## XOCALININ QİSASINI ALMALIYIQ

**Hikmət Babaoğlu**:

- Düşünürəm ki, Xocalı soyqırımı haqqında danışmaq hər bir azərbaycanlı üçün çox çətin olar. Xocalı soyqırımı ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən vəhşilik aktıdır. Bu soyqırımı 20-ci əsrdə insan üçün üzqaraldıcı bir hadisədir. Bəzən özümüzü qınayırıq ki, soyqırımı ilə bağlı məlumatları quru çatdırırıq, ona görə dünya ictimaiyyəti tərəfindən qəbul olunmur. Ancaq mən hesab edirəm ki, bu məsələdə özümüzə qarşı ədalətsizik. Xocalı soyqırımının dünyaya çatdırılması istiqamətində böyük işlər görülüb. Bəzən bunu duymaq, eşitmək istəmirlər. Bəzən bu faciəni əks etdirən dəlilləri görüb, nə yaxşı ki, müsəlman türkünə qarşı belə bir hadisə baş veribdir deyirlər. Azərbaycanın imdad dilədiyi beynəlxalq təşkilatlar və Qərb dövlətlərin bu soyqırımına münasibəti birmənalı deyil. Mətbuat işçiləri olaraq çalışırıq ki, soyqırımının əsil mahiyyətini dünya birliyinə çatdıraq. Ötən il İsrailin keçmiş səfirlərindən biri redaksiyamızın qonağı idi. Onunla Xocalı soyqırımı haqqında söhbətimiz oldu. Həmin ərəfədə İsrail parlamentində qondarma erməni soyqırımı müzakirəyə çıxarılmışdı. O mənə bildirdi ki, narahat olmayın, bununla bağlı sənəd qəbul olunmayacaq. Türk-erməni münasibətləri haqqında yəhudi xalqı içərisində formalaşmış fikir var. 1948-ci ildə BMT-nin qərarı ilə İsrail dövləti yarandıqdan sonra bir nəfər yəhudi milyarderi ABŞ-dan oraya gəlir. Ona deyirlər ki, yeni yaradılacaq İsrail dövlətinə pul xərcləməlisiniz, bir sıra sənaye obyektləri tikməlisiniz. Həmin vaxt onun sevdiyi xanımının çəkməsinin birini oğurlayırlar. Xanım bundan şikayətlənməyə başlayır ki, mən nə edəcəm? Həmin milyarderə deyirlər ki, bazarda bir çəkməçi var. Həmin çəkməçi onun eynisindən tikə bilər. O, gəlib həmin erməni çəkməçini tapır. Proses nəticəsində o ermənin yanına tez-tez gedib-gəlir. Beləliklə, erməni qondarma soyqırımı haqqında ona danışır. Bu yəhudi milyarderinə çox pis təsir edir və bunu kitab şəklində nəşr etdirir. Erməni elə bir çəkmə tikir ki, milyarderin xanımı bunu itən tay bilmir. Deməli, bir ailənin timsalında ifadə olunan qondarma soyqırımı, yəhudi millətində türk-erməni münasibətlərinə dair dərin fikir formalaşdırdı. Statistikanın və xronologiyanın vasitəsilə soyqırımı haqqında məlumatların dərc edilməsi insanlarda o qədər də dərin təəssürat oyatmır. Çox yaxşı olardı ki, soyqırımın ağır nəticələrini özündə əks etdirən dünyamiqyaslı ədəbiyyat nümunəsi yaradılsın. Bunu etsək belə, dünyadakı ikili standartların aradan qalxması üçün daha ciddi çalışmaq lazımdır. Bəli, Xocalını unutmamalı, yaddan çıxartmamalıyıq. Xocalının qisasını almalıyıq. Bu qisası gələcək nəsillərin öhdəsinə buraxmağa mənəvi haqqımız yoxdur. Əminəm ki, Azərbaycan dövlətinin apardığı siyasət buna doğru yönəlib.

## XOCALIDA ERMƏNİ VANDALİZMİ HƏYATA KEÇİRİLİB

Xocalı soyqırımına həsr olunan sənədli xronikanın mahiyyətinə toxunan "Səs" qəzetinin baş redaktoru və SİA-nın baş direktoru Bəhruz Quliyev diskin hazırlanmasında məqsədin Xocalı həqiqətlərinə bir daha nəzər salmaq, onu ictimai fikrin yaddaşında möhkəmləndirmək olduğunu bildirdi. O, qeyd etdi ki, 1987-ci il fevralın 13-də Xankəndində ermənilərin ilk separatçı mitinqlərə başlamaları ilə Azərbaycanın dilbər guşələrinin tədricən işğal edilməsinin əsası qoyulub. 1987-ci ildən 1992-ci ilə qədər erməni-rus hərbi birləşmələri tərəfindən Azərbaycanın onlarla yaşayış məskəni işğal edilib, insanlar soyqırıma məruz qalıblar: "1992-ci il fevralın 25-dən 26-sına keçən gecə isə ermənilər Xocalıda dünyanı dəhşətə gətirən soyqırımı aktı həyata keçirdi. Ermənilər

Xankəndində yerləşən SSRİ-nin 366-cı motoatıcı alayının köməyi ilə Xocalını yerlə yeksan etdi. Ermənilər 613 nəfər azərbaycanlını vəhşicəsinə qətlə yetirdilər. Onların 63-ü uşaq, 106-sı qadın, 70-i isə ahıl adam idi. 8 ailə bütövlükdə qətlə yetirildi. 487 nəfər yaralandı. Yaralananların 76 nəfəri uşaq idi. Girov götürülənlərin sayı 1275 nəfər təşkil edir. 150 nəfərin aqibətindən isə hələ də xəbər-ətər yoxdur.

## AYAZ MÜTƏLLİBOV AZƏRBAYCAN XALQI TƏRƏFİNDƏN BAŞINA YAYLIQ BAĞLANARAQ MOSKVAYA GÖNDƏRİLDİ

**Fəzail Ağamalı:**

- Xocalı faciəsi millətimizə qarşı törədilmiş soyqırım aktıdır. Bunun başqa izahı ola bilməz. Kimsə bunu bu və ya digər siyasi konyuktura müstəvisi çərçivəsində həll etməyə cəhdlər göstərirsə, deməli, onun adı xəyanətkardır. 1992-ci il fevralın 26-da soyqırımı baş verdi. Fevralın 28-də Ağdamdan Şakir adlı bir nəfər "Jiquli" markalı maşının arxa hissəsindən iki nəfər adsız körpənin meyitini mənə təqdim etdi. Hadisə qurbanı olan həmin körpələri Şəhidlər Xiyabanında dəfn etdirdim. Bu günə qədər onların yalnız birinin adı məlum olub. Bu soyqırımının nəticələrini xalqımız öz dərdi kimi daşıyırdı. Bu gün də belədir. Xocalı faciəsinin törədilməsinin başlıca səbəbi sovet imperiyası, bu imperiyanın dağıdılmasında maraqlı olan qüvvələr, bundan istifadə edən ermənilər, onların Azərbaycana qarşı yönəlmiş məkrli siyasətinin ölkəmizin səriştəsiz, antimilli hökuməti tərəfindən lazımi səviyyədə qiymətləndirilməməsi oldu. Daha konkret desək, soyqırımının baş verməsini əngəlləmək olardı. Ona görə də, 1992-ci ilin mart ayında Ayaz Mütəllibov Azərbaycan xalqı tərəfindən başına yaylıq bağlanaraq, Moskvaya göndərildi. Azərbaycan xalqının təbliğatı ermənilərə nifrət istiqamətində aparılmalıdır. Ermənilərin iç üzünü unutmadan, onların Azərbaycan türkünə qarşı düşmənçiliyi yaddan çıxarılmamalıdır.

Bu gün dünyada xristian təəssübkeşliyi və ikili standartlardan yanaşmaq mövqeyi var. Bu səbəbdən də, Azərbaycanın haqlı mövqeyi dövlətlər tərəfindən qəbul olunmur və dərk edilmir. Çünki dünya ədalətsiz dünyadır. Azərbaycan intensiv və ardıcıl olaraq bu yöndə işlər görməli, gələcək nəsillərə olduğu kimi çatdırmalıdır. Artıq Xocalı soyqırımı ilə bağlı təşviqat, təbliğat işləri dövlət siyasətinə çevrilib və sistemli xarakter alıb. Azərbaycan Ordusu daha da güclənməli və ermənilərlə iki əsrdən bəri davam edən müharibədə son sözünü deməlidir. Əminəm ki, zaman gələcək Azərbaycan türkü ermənidən özünün son və tarixi intiqamını alacaq. İşğal altında olan torpaqlarımız Azərbaycana geri qaytarılacaq. Sadəcə, öz mübarizəmizdə prinsipial və qətiyyətli olmalıyıq.

**Aydın Hüseynov:**

- Xocalı soyqırımının dünyaya çatdırılması üçün Azərbaycan dövlətini əlində kifayət qədər imkanlar var. Hər bir ölkə vətəndaşı da bu işdə aktivlik nümayiş etdirməlidir. Mən təklif edərdim ki, soyqırımına aid materiallar toplanarkən Xocalı sakinlərinin ifadəsi alınsın. Hər halda, onlar hadisənin canlı şahididir və onların söylədikləri tarixi sənədlərin dünyaya çatdırılmasında mühüm rol oynaya bilər. Düşünürəm ki, Xocalı soyqırımının törədilməsində 366-cı motoatıcı alayın "fəaliyyətindənsə", ermənilərin riyakarlığı daha çox qabardılmalıdır. Çünki bu hadisəni törədən azğınlaşmış erməni millətidir.

## 13 YAŞLI AZƏRBAYCANLI QIZI ERMƏNİ TƏRƏFİNDƏN 7 DƏQİQƏ ƏRZİNDƏ ZORLANIB VƏ ÖLDÜRÜLÜB

**Cümşüd Nuriyev:**

- O zaman Xocalı deputat komissiyasının üzvü olmuşam. Ümummilli lider Heydər Əliyevin gözəl bir fikri var. O deyirdi: "Biz erməni deyilik, amma genosidə məruz qalmışıq. Erməni kimi bunu gündəmə gətirib xaricdən maliyyə yardımı almaq üçün yox, öz həqiqətlərimizi dünyaya çatdırmaq üçün deyirik". Məşhur rus politoloqu Sergey Markedenov yazır ki, Heydər Əliyev ermənilərin əlindən ən böyük "kozır"ı aldı. Cənab Prezident İlham Əliyev elan etdi ki, son iki yüz ildə ermənilər azərbaycanlılara qarşı soyqırımı siyasəti həyata keçirib və İrəvan onlara bağışlanıb. Dövlət başçısı və Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev son açıqlamasından sonra erməni saytlarının təhqirinə məruz qalıb. Ermənilərin 40 ildə gördüyü işi Azərbaycan dövləti son 4 ildə həyata keçirib. Çünki Azərbaycan həqiqəti deyir. Aparılan rəsmi araşdırmalara görə, Ermənistanda hər dörd nəfərdən biri psixoz xəstəliyinə tutulub. Amma Azərbaycanda ruh yüksəkliyi var. Gənclərimizin bu işə müdaxiləsi intensiv xarakter daşıyır. Ermənilər qondarma soyqırımı məsələsini 40 il ərzində çox böyük çətinliklə dünyanın 24 ölkəsinə qəbul etdirib. Son 1 ildə isə Azərbaycanın xaricdəki təbliğatı 3 dəfə artıb. Üç il bundan öncə, Prezident İlham Əliyev xarici ölkədəki səfirlərimizə yanına çağıraraq, onlara hücum taktikasını irəli sürdü. Tomas Devalın "Qarabağ. Azərbaycan və Ermənistan hərb, sülh arasında" adlı kitabında sapı özümüzdən olan baltalar ölkəmizin əleyhinə yazılar yazıblar. 1996-cı ildə Zori Balayan kitabında 13 yaşlı azərbaycanlı qızın erməni tərəfindən 7 dəqiqə ərzində necə zorlandığını və öldürüldüyünü yazıb. Bu kitabı Azərbaycan dilinə tərcümə edib yaymalıydıq.

Xocalı soyqırımı ilə bağlı istintaq materialları tamamilə açılmalıdır. Gəlin, bu məsələdə hakimiyyətin günahı ilə ermənilərin günahını qarışdırmayaq. Təbii ki, bu soyqırımının baş verməsində o zamankı Azərbaycan rəhbərlərinin təqsiri böyükdür. Ancaq bütün gücümüzü onların xəyanətkarlığını sübut etməyə yönəltsək, o zaman bu hadisəyə soyqırımı adı verə bilmərik. Soyqırımı termininin konkret izahı var. Ermənistanın soyqırımı muzeyinin materialları 16 saytda 3 dildə yerləşdirilib. Amma Azərbaycanda ən aktiv qəzetlərin saytı yalnız 2 dildə fəaliyyət göstərir. Çox təəssüflər ki, bütün domenlərimiz ermənilərdədir. Nə üçün onlara qarşı mübarizə aparmırıq? Qarabağ, Sumqayıt, hətta Şamaxı adlı domenlər ermənilərin əlindədir. Ermənilər bu domenlərdən istifadə edərək, Azərbaycan dilində verdikləri yanlış məlumatları dünyaya çatdırırlar. Fikrimin məğzi ondan ibarətdir ki, Azərbaycan bu istiqamətdə bütün tədbirləri həyata keçirmək gücündədir.

## İNŞAALLAH, PREZİDENT İLHAM ƏLİYEVİN SAYƏSİNDƏ XALQIMIZ QƏLƏBƏ ÇƏLƏNGİNİ BOYNUNA ASAR

**Bəxtiyar Əsgərov:**

- Azərbaycan dövləti Xocalı soyqırımının tanıdılması yönündə ciddi işlər görür. Bu işdə, təbii ki, gənclərimizin rolu əhəmiyyət kəsb edir. Bu, onu göstərir ki, gənclər bütün ümummilli məsələlərdə Azərbaycan xalqı ilə birgədir. Qeyd etməliyik ki, Xocalı soyqırımına ilk dəfə siyasi və hüquqi qiymәti verən böyük şəxsiyyət Heydər Əliyev olub. Bu gün də biz Onun qoyduğu ideoloji-siyasi xətlə gedirik və bu soyqırımını dünya miqyasında təbliğ edirik. Bu soyqırımının dünyaya tanıdılması ilə bağlı bütün məsuliyyəti dövlətin üzərinə yıxmaq kökündən yanlışdır. Bu, bir faktdır ki, dünyada ikili standartlar mövcuddur. Bizim üzümüzə gülsələr də, arxada erməniləri dəstəkləyirlər. Kiminsə onurğa sütunundan çıxarılmış bir sümüyü dünyaya car çəkərək, qondarma erməni soyqırımının nəticəsi kimi təqdim etməyə çalışırlar. Ancaq biz yaxın keçmişdə baş verən Xocalı soyqırımının dünyaya tanıdılmasına nail ola bilmirik. Bütün bunlara baxmayaraq, Azərbaycan dövləti səylərində möhkəm olmalı və dövlət başçısı İlham Əliyevin ətrafında sıx birləşməliyik. Bu istiqamətdə işimizi artan templə davam etdirməliyik.

Ümid edirəm ki, yaxın gələcəkdə Xocalı soyqırımının dünyaya tanıdılması yönündə ciddi irəliləyiş əldə olunacaq. O cümlədən, Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinə nail olacağıq. Ömür vəfa etmədi, ulu öndərimiz Heydər Əliyev bu işləri həyata keçirə bilmədi. İnşallah, Prezident İlham Əliyevin sayəsində xalqımız qələbə çələngini boynuna asar.

**Akif Aşırlı:**

- Xocalı soyqırımının dünyaya tanıdılması istiqamətində Azərbaycan mətbuatı tərəfindən kifayət qədər iş görülüb və görülməkdədir. Bu istiqamətdə gördüyümüz işlər göz qabağındadır. Sadəcə, bu hadisənin dünyaya çatdırılması formaları haqqında düşünməliyik. Xocalı soyqırımının beynəlxalq arenaya çatdırılması üçün tədbirlər planı işlənib hazırlanmalıdır. İnformasiyaların müxtəlif dillərdə axtarış saytlarına yerləşdirilməsi, bununla bağlı kütləvi filmlərin çəkilməsi olduqca vacibdir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə, Xocalı soyqırımına aid qısametrajlı film müxtəlif dillərə tərcümə olunaraq, dünya ictimaiyyətinə təqdim olunub. Ancaq bir filmlə işimizi yekunlaşmış hesab etməməliyik. Kinoşünaslar bu işə məxsusi fikir verməlidirlər. Biz təklif edirik ki, soyqırımını özündə əks etdirən ədəbiyyat nümunələri yaradılsın. Keyfiyyətli bədii əsərlərin formalaşmasına ehtiyac var. Ermənilər törətdikləri cinayətin arxasından qaçmaq üçün müxtəlif vasitələrə əl atırlar. Azərbaycan buna imkan verməməlidir. 1948-ci ildə qəbul olunmuş "Soyqırımı haqqında" Konvensiya var. İşimizi həmin konvensiyanın müddəalarına uyğun qurmalıyıq. Əgər Xocalı soyqırımını bütün dünyaya çatdırmaq istəyiriksə, bəzi məsələləri korrektə etməliyik. Bu da, ondan ibarətdir ki, Xocalı soyqırımının baş verməsində daxili düşmən axtarmamalıyıq. Mən təklif edirəm ki, ictimai əsaslarla bir qurum yaradılsın və Xocalı soyqırımı ilə bağlı bütün dəlil-sübutlar oraya toplansın. Siyasətçilərin, tarixçi alimlərin və beynəlxalq mütəxəssislərin köməyi ilə geniş təbliğat işləri aparaq.

**SEVİNC NƏZƏROVA,**
**KÜBRA ƏLİYARLI**